

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 135 (24.272)

*29 iyul 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, muxtar respublikada səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi, fəaliyyətin optimallaşdırılması, habelə səmərəli idarəetmə üsullarını tətbiq edərək əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsi yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsə ümumi rəhbərliyi və nəzarəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədrdən və digər 4 (dörd) üzvdən ibarət Müşahidə Şurası həyata keçirir;

2.2. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin Müşahidə Şurası Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədrdən, Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavinindən, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinindən, Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavinindən və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının Naxçıvan Muxtar Respublikası Komitəsinin sədrindən ibarət tərkibdə formalaşdırılır;

2.3. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin fəaliyyətinə cari rəhbərliyi “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir. İcraçı direktorun Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 2 (iki) müavini vardır;

2.4. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin saxlanması və fəaliyyətinin təmin edilməsi dövlət büdcəsindən ayırmalar, tabeliyində olan səhiyyə müəssisələrinin göstərdiyi xidmətlərdən əldə edilən daxilolmalar, ianələr, qrantlar və qanunla qadağan olunmayan digər mənbələrdən daxil olan vəsait hesabına həyata keçirilir.

3. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

3.1.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

3.1.2. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin yenidən təşkili və ləğvi;

3.1.3. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin idarəetmə orqanlarının yaradılması, Müşahidə Şurasının sədrinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.1.4. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

3.2. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin nizamnaməsinin və strukturunun layihəsini, o cümlədən nizamnamə fondunun miqdarı barədə təklifləri bir ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

4.2. “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyinə veriləcək dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin siyahısını Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

4.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

4.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 28 iyul 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin II hissəsini və 32-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il avqust ayının 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası çağırılsın.

2. Növbədənkənar sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilsin:

2.1. “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi;

2.2. “Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi;

2.3. “İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi;

2.4. Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) hesabatı;

2.5. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”nin təsdiq edilməsi;

2.6. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun qəbul edilməsi;

2.7. “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun qəbul edilməsi;

2.8. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələrinin yeni tərkibinin təsdiq edilməsi;

2.9. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanının təsdiq edilməsi.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı bu Qərardan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 28 iyul 2023-cü il*

## Tanınmış sığorta şirkətlərinin muxtar respublikada fəaliyyətə başlaması sığorta bazarının inkişafına öz töhfəsini verəcək

*Sığorta bazarı hər bir ölkənin maliyyə sistemində mühüm əhəmiyyət kəsb edən sahələrdəndir. Bu bazarı təşkil edən sistemin təməl prinsipləri sığorta münasibətlərinə əsaslanır. Qarşılıqlı inam və güvən üzərində formalaşan sığorta münasibətləri isə müasir dövrün ən aktual çağırışlarındandır.*

Təsadüfi deyil ki, müasir dövrdə qarşıya çıxan bir çox vacib məsələlərin həll olunması paralel olaraq bizi bəzən bu və ya digər risk ehtimalları ilə də üz-üzə qoyur. Nəticədə isə insanların gözlənilməz, təsadüfi hadisələr zamanı üzləşdiyi maddi itkilər uzun illər ərzində qənaətlə toplanmış bütün vəsaitləri yox edə bilir. Məhz bu cür xoşagəlməz hadisələrin qarşısının alınmasında ən optimal çıxış yolu sığorta olunmaqdır. Ona görə də sığorta olunmağa ciddi münasibət bəslənilməsi insanların başına gələ biləcək riskli hadisələrin ağır nəticələrindən qorunması deməkdir ki, bu da sığorta mədəniyyətinin mühüm hissəsidir. Cəmiyyətdə sığorta mədəniyyətinin formalaşması isə, ilk növbədə, bu fəaliyyəti təşkil edən müxtəlif təşkilat və qurumların fiziki və hüquqi tərəflərlə qurduğu qarşılıqlı etibarlı əməkdaşlıqdan asılıdır. Təbii ki, burada mühüm şərtlərdən biri kimi ölkədəki maliyyə sabitliyini və sair də göstərmək olar, amma ən əsas formalaşmış etibardır. Bu isə elə bir vacib amildir ki, burada sığortaolunanın sığortaedənə, sığortaedənin isə sığortaolunana qarşılıqlı inamı yaranır və sığorta tərəflər arasında inkişaf edən cəmiyyətin bir sosial sifariş modelinə çevrilir. Bundan sonra əhalinin sosial müdafiəsinin təşkil olunması, təsadüfi, gözlənilməz hadisələr baş verdikdə maddi itkilərin sığorta fondu vasitəsilə əvəz olunması, beləliklə də, insanların çıxılmaz vəziyyətdən qurtarılması sığorta işini təşkil edənlərin vəzifəsinə, vaxtında sığortalanmaqla sığortanın üstünlüklərindən istifadə etmək isə bütün sığortaolunanların borcu və sosial məsuliyyətinə çevrilir. Digər tərəfdən, sığorta işinin təşkili xidmət mədəniyyəti üzərində qurulduğundan burada sığortaolunanlarla sığortaçı qurum arasında təşkilati məsələlərin həlli ilə yanaşı, öhdəliklərin qanunvericiliklə müəyyən olunmuş qaydada yerinə yetirilməsi də vacib şərtlərdəndir.




Sevindirici haldır ki, son illərdə ölkəmizdə sığorta bazarının inkişafı artıq bu sahədə bir çox uğurların qazanılmasına şərait yaradıb. Nəticədə, həm də könüllü sığortaolunanların sayı artıb, sığorta qurumlarına inam yüksəlib. Naxçıvan Muxtar Respublikasında son dövrlərdə digər sahələr kimi sığorta bazarında da canlanma hiss olunur. Xüsusilə muxtar respublikada ölkənin tanınmış sığorta şirkətlərinin regional bölmələrinin fəaliyyətə başlaması bu bazarın inkişafına, müxtəlif yeniliklərin tətbiqinə imkan yaradır. Təkcə elə iyul ayı ərzində muxtar respublikada 3 sığorta şirkətinin bölgə filialı fəaliyyətə başlayıb. İyulun 18-də Naxçıvan şəhərində “Qala Sığorta” şirkəti, iyulun 25-də isə “PAŞA Həyat Sığorta” və “PAŞA Sığorta” Açıq Səhmdar cəmiyyətlərinin rəsmi nümayəndəlikləri istifadəyə verilib. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü, fəaliyyətinin isə 25-ci ildönümündə Naxçıvanda nümayəndəliyini açan “Qala Sığorta” şirkəti muxtar respublikada 30-dan çox könüllü və 4 icbari sığorta növləri üzrə xidmətlərini təklif edir.

“PAŞA Həyat Sığorta” və “PAŞA Sığorta” Açıq Səhmdar cəmiyyətləri də artıq Naxçıvan əhalisinə peşəkar xidmətlərini təqdim etməyə başlayıb. Eyni zamanda “PAŞA Həyat” 2021-ci ildən etibarən yeni Rəqəmsal Transformasiya strategiyasını tətbiq edir. Şirkət biznes fəaliyyətindən başqa korporativ sosial məsuliyyət layihələrinə də önəm verir. Bunlar arasında biznes maarifləndirmə, təhsilə dəstək və digər sosial fəaliyyətlər üçün faydalı məhsullar mövcuddur.

Qeyd edək ki, 11 vacib prioritet istiqamət üzrə müəyyənləşən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da əhalinin və sahibkarların sığorta savadlılığının artırılması və sığorta xidmətlərinə əlçatanlığının inkişafı məqsədilə müvafiq tədbirlərin görülməsi, sahibkarlığın inkişafı, innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirlərinin həyata keçirilməsi əks olunub.

Beləliklə, ölkəmizin tanınmış sığorta şirkətlərinin Naxçıvanda fəaliyyətə başlaması məşğulluq məsələlərinin həlli ilə yanaşı, muxtar respublikanın sığorta bazarında rəqabətliliyin də yaranmasına şərait yaradacaq. Bu isə sığorta xidmətlərinin peşəkar təqdimatından tutmuş, gələcəkdə daha yeni məhsulların təklifinə, əhalinin bu cür xidmətlərə əlçatanlığına, yeni sığorta mədəniyyətinin formalaşmasına öz töhfəsini verəcək.

**Səbuhi HƏSƏNOV**

*Vətən müharibəsində ölkəmizin əldə etdiyi şanlı Zəfərdən sonra kapitulyasiya aktına imza atmaqla məğlubiyyətini qəbul edən, ötən ilin oktyabr ayında keçirilən Praqa və Soçi görüşlərində 1991-ci il Almatı Bəyannaməsi əsasında ölkəmizin ərazi bütövlüyünü və suverenliyini, həmçinin Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyan Ermənistanın son vaxtlarda sərhəddə mütəmadi olaraq törətdiyi təxribatlar, eləcə də Laçın yolunun blokadada olması ilə bağlı yalan məlumatları, şou xarakterli oyunları beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlib, eyni zamanda planlaşdırılan sülh prosesindən hər mənada yayındığının, hələ də öz talançı, riyakar, ikiüzlü siyasətini davam etdirdiyinin bariz göstəricisidir. Ölkə başçısının da dəfələrlə qeyd etdiyi kimi: **“Laçın-Xankəndi yolunda hər hansı bir blokadadan söhbət gedə bilməz”.** Faktlar da göstərir ki, ilk gündən Laçın yolu bağlanmamış, Rusiya sülhməramlıları, Beynəlxalq Qırmızı Xaç Komitəsi, humanitar yüklər rahat şəkildə yoldan keçmişdir.*

## Ermənistanın növbəti şou xarakterli təxribatı onun sülhsevər olmadığını açıq-aydın göstərir



Müharibədən sonra üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozan Ermənistan Laçın yolundan sui-istifadə edərək hərbçilərin rotasiyasını həyata keçirir, Azərbaycanda mina təhdidini, təbii sərvətlərin qanunsuz istismarını davam etdirir, üçüncü ölkə vətəndaşlarının Azərbaycan ərazisinə qanunsuz keçidinə şərait yaradırdı. Mülki insanlarımızın həyatı üçün də təhlükə yaradan bu amillər Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını labüd etmişdi. Dövlətimizin öz suveren hüququndan istifadə edərək Ermənistanın qanunazidd fəaliyyətlərinin qarşısını almaq məqsədilə aprelin 23-də qurulan bu məntəqədən Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinləri hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılmışdı. Laçın-Xankəndi yolunda Azərbaycanın sərhəd nəzarət-buraxılış məntəqəsi yaratması ilk gündən Ermənistan rəhbərliyi və onların havadarlarını daha da qıcıqlandırmış, bu addımı qarabağlı ermənilərin birmənalı olaraq Azərbaycanın girovuna çevrilməsi kimi cəfəng bəyanatlarla çıxış etmişdilər.

Ermənistan Laçın-Xankəndi yolunun guya blokadada olması barədə yalan məlumatlar yaymağa davam edir, siyasi manipulyasiya və spekulyasiya siyasətini davam etdirir, bununla da öz məqsədlərini və planlarını həyata keçirirdi. İyulun 15-də Brüsseldə Ermənistan və Azərbaycan liderləri arasında Avropa Şurası sədrinin vasitəçiliyi ilə keçirilmiş son danışıqlar zamanı Ağdam-Xankəndi yolunun daha çox çatdırmalar üçün istifadə edilməsi ilə bağlı razılıq əldə edilsə də, Ermənistan yalnız Laçın yolundan istifadədə israr edərək “bölgədə gərgin humanitar vəziyyət” iddiaları ilə yalan təbliğat kampaniyalarına davam etdi. Ötən gün Ermənistan tərəfi ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı növbəti təxribat törədərək Azərbaycanın suveren ərazilərinə “humanitar yük” adı altında avtomobil konvoylarını göndərmişdi. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan ərazilərinə yük göndərilməsi cəhdi ilə bağlı açıqlamasına dair şərhində Ermənistan tərəfini Azərbaycan ərazilərinə təcavüz və işğal nəticəsində soyqırımı daxil, insanlıq əleyhinə cinayətlərə, etnik təmizləmə siyasəti və törətdiyi əməllərə görə üzr istəməyə çağırmış, həmçinin şərhdə o da bildirilmişdir ki, Ermənistan tərəfi, həqiqətən də, bölgədə sülh və sabitliyə maraqlıdırsa, o cümlədən Azərbaycanın ərazi bütövlüyü və suverenliyini yalnız sözdə deyil, əməldə də dəstəkləyirsə, bu kimi təhrikçi addımlardan çəkinməli, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün təklif etdiyi “Ağdam-Xankəndi” yolundan və digər alternativ yollardan istifadəni dəstəkləməlidir. Ermənistan tərəfi, həmçinin Azərbaycanın erməni sakinlərinin reinteqrasiyası üzrə səylərinə maneçilik törətməməlidir...

Bu mənada, Ermənistan təxribatlarına göz yuman və qərəzli şəkildə Azərbaycana qarşı çağırışlar edən Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Laçın yolu ilə bağlı 27 iyul tarixli bəyanatında Azərbaycanın Laçın yolunu blokadada saxladığı barədə iddiasını sözdə beynəlxalq hüquq müstəvisindən çıxış edən bu dövlətin növbəti riyakarlığının, ermənipərəst mövqeyinin göstəricisidir. Eyni zamanda Ermənistanın düzənlədiyi bu qondarma şouda Qərb nümayəndələrinin canfəşanlığı onların məqsədinin yalnız beynəlxalq ictimaiyyəti yanlış yönləndirmək olduğu aydın görünür.

Müharibədən sonra verdiyi sözləri tutmayan Ermənistan rəhbərliyi Azərbaycanın sülh təşəbbüsünə biganə yanaşdığını təxribatçı əməlləri ilə açıq-aydın göstərir. İyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı Prezident cənab İlham Əliyevin bu sözləri bloklayan tərəfin kim olduğunu bir daha təsdiq edir: ***“...Yenidən inteqrasiya məsələsi Qarabağın erməni sakinlərinin bax bu yanlışlardan, onları girov götürən, qul kimi istismar edən bu xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır. İndi də istismar edirlər, çünki ekofəallar Laçın-Xankəndi yoluna çıxanda, Xankəndidəki sözdə “erməni rəhbərliyi” sadə vətəndaşlara bu yoldan istifadə etməyə icazə vermirdi. Onlar blokpost qoyaraq bizi blokadada ittiham edirdilər. Bu gün onlar yenə Ağdam-Əsgəran yolunda beton plitələr qoyublar. Siz “nə üçün ərzaq məhsulları başqa ölkədən gətirilməlidir? Axı “Qarabağ Azərbaycandır” dediniz. Eləmi? Bunu hamı təsdiq edir? Hamı təsdiq edir. Kimsə bunun belə olmadığını deyirmi? Yox. Onda niyə yüklər başqa ölkədən gətirilməlidir? Bu, məntiqə sığmır. Lakin bu jesti qəbul etmək əvəzinə orada beton bloklar qoyulur. Kim-kimi bloklayır? Ona görə də bütün məsələ bundadır”.***

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Süni suvarma mənbələri hesabına suya olan tələbatın ödənilməsi günün tələbidir



Babək rayonunun bəzi yaşayış məntəqələri, eləcə də Naxçıvan şəhərinin Qaraçuq, Qaraxanbəyli və Tumbul kəndləri süni suvarma sistemləri, nasoslar vasitəsilə suvarılır. Babək Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin nasos stansiyaları üzrə sahə rəisi Cabir Əliməmmədovun sözlərinə görə, süni suvarmadan istifadə edərək bitkilərin rütubətlə təminatı və həmçinin şoranlaşmış torpaqlarda duz rejiminin tənzimlənməsi ilə torpaqların süni nəmləndirilməsinə nail olunur. Bu gün rayonda müasir suvarma üsullarının tətbiq edilməsi diqqət mərkəzində saxlanılıb. Hazırda “Qaraçuq-1” və “Araz-1” nasos stansiyaları vasitəsilə Babək rayonunun bir neçə kəndində və yaxın ərazilərdə suvarma işləri aparılır.

Müsahibim bildirdi ki, “Qaraçuq-1” nasos stansiyası 1969-cu ildə, “Araz-1” nasos stansiyası isə 1981-ci ildən istismara verilib. Artıq bu gün “Qaraçuq-1” nasos stansiyasında 6 nasos fəaliyyət göstərir. “Qaraçuq-1” nasos stansiyası tərkibində 1225, “Araz-1” nasos stansiyası vasitəsilə 606 hektar ərazi suvarılmaqdadır. “Qaraçuq-1” nasos stansiyası vasitəsilə Qaraçuq kanalından Tumbul ərazisində yerləşən yerlərə pilləli şəkildə su vururlur və eyni zamanda “Qaraçuq-2” nasos su stansiyası isə pilləli şəkildə Nehrəm stansiyasına su ötürür. Bu su mənbələrindən Babək rayonunun Nehrəm qəsəbəsi, Qoşadizə kəndi və Naxçıvan şəhərinin Tumbul, Qaraçuq, Qaraxanbəyli kəndlərinin bəzi torpaq sahələri suvarılır.

Təsərrüfat sahiblərindən Qaraçuq kənd sakini Kazım Qurbanov deyir ki, 40 hektara yaxın ərazidə taxıl, qarğıdalı, yonca becərir və ərazisini Qaraçuq kanalı vasitəsilə suvarır. Bütün təsərrüfat adamları yaxşı bilir ki, məhsulun hasil olmasında suvarmanın əhəmiyyəti çox vacibdir. Ona görə də mövcud su mənbələrindən səmərəli istifadə olunması diqqət mərkəzində saxlanılır.

✍ **Bülbül QULİYEVA**

## Gənclər və İdman Nazirliyinin yeni saytı fəaliyyətə başlayıb



Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yenilənmiş internet saytının təqdimatı olub. Bu münasibətlə keçirilən tədbirdə gənclər və idman nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Məcid Seyidov çıxış edərək bildirib ki, Gənclər və İdman Nazirliyi informasiya yayımını həyata keçirərkən ənənəvi və onlayn media ilə əməkdaşlığı qoruyur, bununla bərabər müasir metodlarla ictimaiyyətin məlumatlanmasını təmin etməyə çalışır. Sosial şəbəkə hesablarından fərqli olaraq veb-saytın sistematik informasiya tutumuna malik olması və bir çox üstünlükləri onun mövcudluğunu daha çox zəruri edir. Yeni sayt həm nazirliyin əsas rəsmi məlumat resursu, həm də gənclər və idman sahəsindəki yenilikləri əks etdirən portal rolunu oynayacaq.



Daha sonra nazirliyin əməkdaşı Emil Səmədov yenilənmiş *“nmys.gov.az”* internet saytını təqdim edib. Nazirlik əməkdaşı bildirib ki, sayt həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılıb, elektron xidmətlərin həcmi genişləndirilib. Müxtəlif proqramlarla təkmilləşdirilən saytın yeni versiyasında “Əsas səhifə”, “Nazirlik”, “Qanunvericilik”, “Mətbuat xidməti”, “Gənclik”, “İdman”, “Federasiyalar”, “Qalereya” və “Əlaqə” bölmələri yaradılıb. Yeni yaradılan saytın bölmələrində nazirlik haqqında, eyni zamanda muxtar respublikada fəaliyyət göstərən federasiyalar, idman bölmələri, həmçinin idmançılar haqqında zəruri məlumatlar, nazirliyin aylıq hesabatları yerləşdirilib.

“Faydalı linklər” bölməsində bir sıra internet saytlarına keçidlər qeyd edilib, saytın “Naxçıvan Muxtar Respublikasının idman infrastrukturu” adlı bölməsində isə muxtar respublikamızda olan idman obyektlərini əks etdirən fotoşəkillər və məlumatlar yerləşdirilib.

Saytda, həmçinin “Naxçıvanda keçirilən ölkə və beynəlxalq miqyaslı tədbirlər”, “Aktual videolar” və “Gəncliyimizlə fəxr edirik” kimi bölmələr də yaradılıb.

Diqqətə çatdıraq ki, saytın AzStateNet şəbəkəsində yaradılması kibertəhlükəsizlik baxımından zəmanət verir. Qeyd edək ki, nazirliyin rəsmi internet saytı Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb. Yenilənmiş internet səhifəsinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, “Google” axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə “GOV.AZ” domeninə bağlı e-poçt adresi ilə təmin ediləcəkdir. Dizayn, quruluş və məzmun baxımından zəruri tələblərə cavab verən yeni internet səhifəsi dövlət orqanının fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin, bu sahədə olan yeniliklərin, həyata keçirilən tədbirlərin daha dolğun və operativ şəkildə ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

## Gənclər şəhid ailələrini ziyarət edib



Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının birgə təşkilatçılığı ilə bir qrup könüllü gənc tərəfindən Babək rayonunun Nəzərabad və Şəkərabad kəndlərində yaşayan şəhid ailələri ziyarət olunub. Tədbir iştirakçıları bu məqsədlə şəhidlərimiz Fərmin Əliyev, Toğrul Məmmədov və Elvin Məmmədovun ailə üzvləri ilə görüşərək qəhrəmanlarımızın həyatı, döyüş yolu və şücaəti barədə məlumatlandırılıblar.

Gənclər və idman nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov, Milli Məclisin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev görüşlər zamanı şücaətli, cəsur, eyni zamanda vətənpərvər övlad yetişdirdikləri üçün şəhid valideynlərinə dərin minnətdarlıqlarını bildiriblər.

İştirakçılara qəhrəman şəhidlərimizin xidməti fəaliyyəti, təltif edildikləri orden və medallar barədə məlumat verilib. Ailə üzvləri onların özünəməxsus xüsusiyyətləri ilə bağlı fikirlər səsləndirib, xatirələrini bölüşüblər. Gənclər şəhidlərimizə aid xatirə guşələri ilə də tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Cari ilin birinci yarısında 5 minə yaxın daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası 2023-cü ilin ilk 6 ayı ərzində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılıb, vətəndaş müraciətlərinin operativ cavablandırılması təmin edilib. Yanvar-iyun ayları ərzində muxtar respublika üzrə 4 min 869 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 36,6 faiz çoxdur. Ümumi göstəricinin 1700-ü və ya 35 faizi ilkin, 3 min 169-u və ya 65 faizi təkrar qeydiyyatın payına düşüb.

I yarım il ərzində dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərindən 1963-ü fərdi yaşayış evi, 1602-si torpaq sahəsi, 910-u mənzil, 167-si qeyri-yaşayış sahəsi, 157-si qeyri-yaşayış binası, 66-sı əmlak kompleksi kimi müəssisə, 4-ü isə çoxmərtəbəli yaşayış binası olub.

Əmlakların 2187-si və ya 45 faizi Naxçıvan şəhəri, qalanı isə muxtar respublikanın rayonları üzrə qeydiyyata alınıb. Bəhs olunan dövrdə 3 min 632 daşınmaz əmlak obyektinin texniki inventarlaşdırılması aparılıb ki, bu da 2022-ci ilin müvafiq dövründəki göstəricidən 42,7 faiz çoxdur. 1697 əmlaka dair texniki pasport, 1935 torpaq sahəsinin planı və ölçüsü tərtib edilib.

Daşınmaz əmlakın dövlət reyestrindən məhdudiyyət və yüklülüyə dair 2 min 424 arayış verilib, 1690 əmlaka dair məlumat elektron informasiya sistemi vasitəsilə real vaxt rejimində notariat ofislərinə təqdim edilib.

2023-cü ilin birinci yarısında qeydiyyata alınan ipoteka müqavilələrinin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz artaraq 534-ə çatıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***



*Azərbaycan dili qədim ənənələrə, zəngin söz ehtiyatına malik bir dildir. O bizim üçün təkcə ünsiyyət vasitəsi deyil, həm də bizim milli-mənəvi dəyərimizdir. Bütün dünya azərbaycanlıları arasında körpü yaradan bir vasitədir. Bu dildə yaranan qədim və müasir ədəbi nümunələr onun bütün dövrlərdə nə qədər geniş ifadə imkanlarına malik olduğunu göstərir. Bu dildə bizim xalqımızın qəhrəmanlıq tarixi, mübarizələrlə dolu keçmişi, əzmi, zəfəri yaşayır. Azərbaycan dili milli dövlətçilik tariximizin bütün dövrlərində diqqət mərkəzində olmuş, onun dövlət dili səviyyəsinə yüksəlməsi üçün gərgin mübarizələr aparılmışdır.*

# Ana dilim ölən deyil! Başqa dilə dönən deyil!

Dil həm də dövlətin varlığının əsas atributu, xalqın öz taleyinə sahibliyinin göstəricisidir. Maddi və mənəvi irsimizin qorunması, gələcək nəsillərə ötürülməsi işində bir vasitədir. Azərbaycan dili adicə bir ifadə deyil, ürəklərə hərarət gətirən, insanı öz keçmişinə bağlayan, gələcəyə səsləyən mənəvi xəzinədir. Dilimiz bizim kökümüz, milli mədəniyyətimiz, milli əxlaqımızdır. Elə məhz buna görə də Cənubi Azərbaycanda əsrlərboyu soydaşlarımızın öz dillərindən istifadəsi qadağan olunub. Bu məsələ uzun bir tarixi dövrdə olduğu kimi, indi də xalqımızın ağrılı yeridir. Burada yaşayan əhalinin İrandakı molla rejimi tərəfindən sıxışdırılması, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin onlara unutdurulmağa çalışması əsrlərboyu həyata keçirilmiş, bu gün də həmin çalışmalar davam etməkdədir. Onlar belə hesab edirdilər ki, vahid dil – fars dili əsasında təhsil sistemi çoxmillətli ölkə olan İranda "vahid İran milləti"nin yaranmasına yardımçı olacaq və fars təfəkkürlü yeni nəsil yetişdirəcəkdir.

Şah rejimi dövründən İranda ana dilimizə qarşı həyata keçirilən soyqırımı, dilimizin unutdurulması üçün aparılan iş onların gözlədikləri nəticəni vermədi. Bunun üçün ana dilində məktəblərin bağlanması, anadilli ədəbiyyata qarşı təzyiqlər, hətta soydaşlarımıza öz övladlarına türkcə adların qoyulması qadağası da yetərli olmadı. Öz soy-kökünə, qədim folkloruna, milli dəyərlərinə bağlı insanlar doğma dili unutmadılar. Bütün çətinliklərə baxmayaraq, öz ana dillərindən istifadə etməyə davam etdilər. Bu da İranın molla rejimi tərəfindən uzun illər yürüdülən türklərin farslaşdırılması siyasətinin iflasa uğramasına səbəb oldu.

Pəhləvilərin dövrü İranda milli dillərə qarşı ən kəskin münasibətin olduğu dövr kimi xarakterizə oluna bilər. Cənubi Azərbaycan tarixində yalnız Rza şah hakimiyyətdən getdikdən sonra – 1941-ci ildən başlayaraq Azərbaycan dilinə qarşı münasibətdə nisbətən yumşalma müşahidə edilməyə başlandı. Bu dövrdə yaranan anadilli mətbuatın da təsiri ilə milli oyanış baş verdi. Cənubi Azərbaycanda güclü milli hərəkat yetişmişdi və 1945-ci il dekabrın 12-də Təbrizdə Azərbaycan Milli Hökuməti yaradıldı. Hökumətin başçısı S.C.Pişəvəri idi. Bu hökumət 1946-cı ilin yanvarında Azərbaycan dilini Cənubi Azərbaycanda rəsmi dövlət dili elan etdi. Beləliklə də, tarixdə ilk və son dəfə Cənubi Azərbaycanda Azərbaycan dili rəsmi dil kimi təsbit edildi. Həmin hökumət 1946-cı ildə Təbrizdə ilk milli universitet – Azərbaycan Dövlət Universitetini təsis etdi. Burada dərslər Azərbaycan dilində aparılırdı. Lakin 13 dekabr 1946-cı ildə Azərbaycan Milli Hökuməti süqut etməli oldu. Beləliklə, onların yeritdiyi dil siyasəti də yarımçıq qaldı. Milli Hökumət ana dilimizin təbliği, inkişafı uğrunda qısa zaman kəsiyində çox işlər gördü. Onların səyləri nəticəsində milli ədəbiyyatın yaranması prosesi sürətləndi. Lakin sonrakı dövrlərdə də molla rejimi tərəfdarları dilimizə, ədəbiyyatımıza qarşı çox sərt mövqe tutdu və ana dilinin heç bir səviyyədə istifadəsinə imkan vermədi. Bu cəhdlər bölgədə fars dilinin nüfuzunu yüksəltməyə, onun təhsil sistemində möhkəmlənməsinə və beləliklə də, ana dilini unutdurmağa yönəlmişdi. Lakin, təbii ki, xalqın milli dəyəri olan dilini – folklor nümunələrinin yarandığı, ata-babalarının danışdığı, göz açıb gördükləri, ailələrindən əxz etdikləri doğma dilini unutdurmağa müvəffəq olmaq qeyri-mümkün idi.

Bu illər ərzində hər hansı bir inkişafa nail olması üçün heç bir şərait yaradılmayan Cənubi Azərbaycan əhalisi savadlılıq dərəcəsinə görə də çox geridə idi. Savadsız insanlar isə fars dilini bilmirdilər və bütün qadağalara baxmayaraq, öz dillərində danışırdılar. Nəticədə, onların övladları da bu dili öyrənirdilər. Bu da Azərbaycan dilinin qorunub yaşadılmasına real şərait yaradırdı. Digər tərəfdən, yaranan milli ədəbiyyat, mətbuat nümunələri dilimizin inkişafına və yayılmasına təkan verirdi. Məhəmmədhüseyn Şəhriyarın, bütövlükdə, yaradıcılığı və 1954-cü ildə qələmə aldığı "Heydərbabaya salam" poeması güneydə milli şüurun oyanmasında, dirçəlməsində xüsusi bir mərhələ hesab oluna bilər. 1960-cı illərdən etibarən burada Azərbaycan dilində əsərlər çap olunmağa başladı.




1979-cu ildə İran İslam İnqilabı başa çatdıqdan sonra yenidən milli hüquqlar uğrunda mübarizə başladı. Bu mübarizənin əsas hərəkətverici qüvvələrindən biri də inqilabdan sonra Şimali Azərbaycandan öz yerlərinə qayıtmış cənublu ziyalılar idi. Bu zaman referendum yolu ilə qəbul edilmiş konstitusiyada yenə də insanlara milli dildə təhsil hüququ tam verilmir, yalnız ana dilinin fars dili ilə yanaşı, öyrədilməsi nəzərdə tutulurdu. Bütün dövlət yazışmaları fars dilində aparılırdı. Əslində, konstitusiyada öz əksini tapan bu müddəalar yalnız kağız üzərində idi. Azərbaycan dilinə yenə də göstərilən hüquqlar verilmədi və ana dilinin tədrisi mümkün olmadı. Yalnız mətbuatda Azərbaycan dilindən çox az istifadəni görmək mümkün idi.

Artıq İran molla rejimi apardığı dil siyasətinin iflasa uğradığını görürdü. Ona görə də öz məqsədinə zorla nail ola bilməyəcəyini anlayaraq fars dilini əhali arasında dinc yolla yaymağa cəhd edir, Cənubi Azərbaycan ərazisində pulsuz bağça və məktəblər açmaqla öz dillərini təbliğ etməyə, öyrətməyə çalışırdılar.

Azərbaycanda sovet hakimiyyəti dağıldıqdan və müstəqillik əldə edildikdən sonra İranda da milli məsələlər yenidən gündəmə gəldi. Həm Şimali Azərbaycanla, həm Türkiyə ilə olan əlaqələr bu məsələlərin aktuallaşmasını şərtləndirdi. Bundan sonra ana dilindən istifadə hüququ tələbi gücləndi. Lakin bu məsələyə milli təhlükəsizlik məsələsi kimi baxılır, müxtəlif məclislərdə Azərbaycan dilindən istifadə yolverilməz hesab edilirdi. Azərbaycanın regionda güclənməsi İranın molla rejiminin maraqlarına heç cür cavab vermirdi. Məhz buna görə də İran Qarabağ konflikti və postmüharibə dövrlərində Ermənistana yardım etməyi, açıq dəstək verməyi Azərbaycanı zəiflətmək yolu kimi görsə də, Azərbaycan artıq dünya miqyasında öz sözünü qətiyyətlə deməyi bacaran, öz müqəddəratını həll edə bilən güclü bir ölkədir. Ona görə də molla rejiminin bu həmləri onun regiondakı nüfuzuna zərbə vurmaqdan başqa heç bir işə yaramır.

Təəssüf ki, bütün bu dövrlərdə azərbaycanlılar arasında vahid, güclü təşkilatlanma olmadığı üçün onların dil uğrunda mübarizəsi də tam olaraq öz həllini tapa bilmirdi. Buna baxmayaraq, azərbaycanlıların kompakt yaşadığı bölgələrdə Azərbaycan dili bütün dövrlərdə hakim mövqedə dayanmışdır və dayanmaqdadır. Burada yaşayan soydaşlarımız öz milli kimliklərinə, ana dillərinə qəlbən çox möhkəm tellərlə bağlıdırlar. Ümidvarıq ki, öz əli ilə özünü məhvə sürükləməkdə olan İranın molla rejiminin artıq tarixə qovuşmasına çox qalmayıb. Bu hadisələrin fonunda burada yaşayan soydaşlarımız da tezliklə öz haqq və hüquqlarına qovuşacaqlar.

**Nuray ƏLİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*

---

*Azərbaycan ədəbiyyatı və tarixində özünəməxsus yeri olan Turan araşdırmalar mərkəzinin yaradıcısı, tarixçi, məşhur türkoloq, siyasətçi, cavidşünas Əjdər İsmayılovun tədqiqatları həm hər bir ədəbiyyatşünas, tarixçi, həm də hər bir azərbaycanlı üçün dəyərli mənbədir. Çünki onun bütün tədqiqatlarında türkçülük ön mövqedə dayanır. Alim müsahibələrinin birində deyirdi ki, mən elm adamıyam, həm də siyasətçiyəm. Çünki mənim yazdığım kitablar Azərbaycan dövlətinin mənafeyini müdafiə edir.*

# 85 yaşlı türkoloqun cavidşünaslıq araşdırmaları

Alimin Azərbaycan tarixinə aid yazdığı elmi məqalələri, monoqrafiyaları, xüsusilə də 2008-ci ildə işıq üzü görən "Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları" adlı monoqrafiyasında, "Moisey Xorenatsi anonim keşiş müəllifdir", "Mesrop Maştoş əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir" kitablarında Azərbaycan reallıqlarını, ermənilərin "böyük Ermənistan" uydurması ilə əlaqədar qaldırdıqları iddialar elmi sübutlarla rədd edilir. Alimin Türk dünyasına rəğbəti, türkoloq kimi fəaliyyəti yalnız Azərbaycan tarixinə aid yazdığı əsərlərində deyil, həmçinin türkçülüyü təbliğ edən Cavid irsinin tədqiqində, cavidşünaslığa bəxş etdiyi əsərlərində də özünü göstərirdi. Alim 1974-cü ildə "Hüseyn Cavidin tarixi dramları" ("Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam") mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir və bu dissertasiyada Əjdər müəllim yalnız cavidşünas kimi yox, həmçinin bir türkoloq kimi də özünü sübut edirdi. Alim Cavidin "Xəyyam" dramından bəhs edərkən demişdir: "Xəyyam məni Türk dünyasına aparır. Burada Səyavuş var, burada Əfrasiyab var. Xəyyam böyük Şərqdi. Bu əsərin özündə böyük Şərqin həm böyük müdrikliyi var, həm qəhrəmanlıq tarixi var. Hər şeydən əvvəl, o türk xətti məni çəkirdi. Orada olan türkçülük çəkirdi". Bu sətirlər onu sübut edir ki, Əjdər Tağıoğlunun türkçülüyə məhəbbəti onu Cavidə daha çox yaxınlaşdırmışdı.




Əjdər İsmayılovun cavidşünaslığa bəxş etdiyi dəyərli əsərlər sırasında 1983-cü ildə "Dünya romantizm ənənələri və Hüseyn Cavid" monoqrafiyasını, 1988-ci ildə isə "Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi" mövzusunda doktorluq dissertasiyasını misal göstərmək olar. "Dünya romantizm ənənələri və Hüseyn Cavid" monoqrafiyasında alim romantizm cərəyanının tarixi inkişaf xüsusiyyətlərini göstərərək sübut etməyə çalışmışdır ki, "əslində, dünyada romantik şairlərin əksəriyyəti öz yaradıcılıq izlərini Şərqdən, onun zəngin mifologiyasından, bədii poetik irsindən götürmüş, Şərq ruhunun güclü təsirini duymuşlar". Şərq bədii düşüncəsindən, fəlsəfəsindən qidalanan Hüseyn Cavid romantizmi bu əsərdə Şekspir, Bayron, Şiller, Höte və başqa dünya şöhrətli romantik şairlərin poeziyası ilə müqayisə edilmiş və onlar arasındakı oxşarlıqlar göstərilmişdir.

Nəzərinizə çatdırmaq istərdim ki, Cavid həm yaşadığı dövrdə, həm də sonrakı dövrlərdə hərtərəfli araşdırılmışdır. Ancaq Əjdər İsmayılov ilk dəfə Cavidi dünya ədəbiyyatı kontekstində demonologiya aspektindən tədqiqata cəlb etmişdir. "Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi" kitabı bu cəhətdən dəyərli monoqrafiyadır. "Əjdər Tağıoğlu demonizmin tarixi-tipoloji qaynaqların Deviş zarvan fəlsəfi-mifoloji cövhərini, İblis dualizmini, İblis-Demon arasında olan bənzəyişləri, "Demon" anlamı ilə "Promotey" anlayışı paralelindəki oxşarlıq və qohumluq əlaqələrinin tarixi-tipoloji köklərini əhatəli şəkildə təhlil etmişdir". Əjdər müəllim "İblis", "İblisin intiqamı" əsərlərini təhlil edərkən qeyd edirdi ki, Cavid dövrünün bir çox problemlərini demonizm vasitəsilə təqdim edirdi. Məsələn, "İblisin intiqamı" əsərində Hitlerin və onun əlaltıları olan Mussolini, Frankonun İblis obrazında təqdimi buna sübutdur. Akademik İsa Həbibbəyli qeyd edirdi ki, Əjdər Tağıoğlu "İblis"in mənşəyini Qərb ədəbiyyatında deyil, Şərq mədəniyyətinin dərin qatlarında axtarırdı. Bu onun ədəbi siması idi.

Qeyd etmək istərdim ki, bəzən bir məqalə və ya bir elmi kitab oxuyarkən oradakı bəzi terminlərin, dini inancların, fəlsəfi ifadələrin mənasını bilmir, bunları araşdırmaq üçün başqa mənbələrə müraciət edirik. Amma Əjdər İsmayılovun tədqiqatlarında başqa mənbələrə müraciət etməyə ehtiyac olmur. Çünki alim monoqrafiyanı yazarkən ən xırda ayrıntılarında elmi izahını vermişdir. Məsələn, demonizmin Demon Allahı ilə bağlılığından söhbət edərkən ən qədim inancdan doğan zərdüştlüyün də izahını verir və Zərdüşt fəlsəfəsinin də etimologiyasının dərinliyi ilə tədqiq edib oxucuya çatdırır. Diqqətinizə çatdırmaq istərdim ki, bu əsər 1991-ci ildə çap edilib oxucuların istifadəsinə verilmişdir. Ancaq monoqrafiyaya olan tələbata görə yenidən 2015-ci ildə latın qrafikası ilə ikinci dəfə nəşr edilmişdir. Əjdər İsmayılovun yalnız kitabları deyil, onun "Hüseyn Cavidin tarixi dramlarının bəzi xüsusiyyətləri", "Xalq və qəhrəman problemi", "Hüseyn Cavid yaradıcılığında azad qadın problemi", "Hüseyn Cavid və Bayron", "Hüseyn Cavid və Şekspir" və sair kimi silsilə elmi məqalələri də cavidşünaslıq üçün dəyərli mənbələrdir. Alimin kitabları, məqalələri cavidşünaslıq araşdırıcıları və ümumiyyətlə, dünya romantizmini tədqiq edənlər üçün dəyərli mirasdır.

**Səbinə DÜNYAMALIYEVA**
*AMEA Naxçıvan Bölməsinin kiçik elmi işçisi*

---

# Aşura günü qeyd olunub



*Dünən Məhərrəm ayının onuncu günü, Aşura qeyd olunub. Aşura günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası məscidlərində İmam Hüseyn əzadarlığı keçirilib, həmçinin qanvermə aksiyaları da təşkil olunub.*

Ənənəvi keçirilən qanvermə aksiyaları Naxçıvan şəhəri üzrə Heydər məscidində, Sarvanlar və Came məscidlərində, muxtar respublika üzrə 7 rayon mərkəzi xəstəxanasında, 7 kənd həkim ambulatoriyasında, Şərur rayonundakı Püsyan kənd məscidində və Xanlıqlar kənd imamzadəsində həyata keçirilib.



Həkim briqadaları əvvəlcə donorlarda arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün müayinələr aparıb, sonra müvafiq qan qruplarına uyğun qan götürülüb. Dindarlar sivil qaydada, könüllü olaraq qanvermə aksiyasında iştirak ediblər.

Günorta saatlarınadək davam edən aksiyada Naxçıvan şəhəri üzrə 227 nəfərdən 89, Şərur rayonunda 95 nəfərdən 38, Babək rayonu üzrə 110 nəfərdən 55, Ordubad rayonunda 38 nəfərdən 16, Culfa rayonunda 79 nəfərdən 39,5, Şahbuz rayonunda 60 nəfərdən 12, Kəngərli rayonunda 63 nəfərdən 32, Sədərək rayonunda 60 nəfərdən 30 litr qan tədarük edilib.

Bütövlükdə, 732 nəfərdən götürülən 311,5 litr qan qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda Naxçıvan Muxtar Respublika Xəstəxanasının Qan Bankına və "Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsin və "Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi" publik hüquqi şəxsin tərkibində olan qan kabinələrinə təhvil verilib.

Bu könüllü qanvermə aksiyaları zamanı insanlar dini-mənəvi dəyərlər ətrafında həmrəy olmuş, ehtiyacı olanlara həyat verilmişdir.

**Xəbərlər şöbəsi**

# Bir nəfəs qədər yaxın olan şəfa mənbəyi – Duzdağ

*Bəzən biz yurdumuzun gözəlliyini görmədən, kəşf etmədən gözəllik, şəfa axtarmaq ardınca uzaq ölkələrə gedirik. Amma yaşadığımız yer ilə heç bir bağlılığı olmayan insanların dilindən elimiz-obamız, insanlarımız haqqında gözəl sözlər eşidəndə əmin oluruq ki, cənnətin adı elə Naxçıvandır. Bu yaxınlarda üz tutduğum Duzdağ Fizioterapiya Mərkəzində də həmsöhbət olduğum insanlardan eşitdiklərim bu fikirlərimin bir daha təsdiqi oldu. Torpağında bitən bitkilər, köksündən qaynayıb çıxan mineral sular necə min dərdin dərmanıdırsa, elə havası da cana məlhəmdir gözəl yurdumuzun. Dünyanın çox yerini gəzib dərdinə dərman tapa bilməyənlər çarəni burada – Naxçıvanda tapırlar. Dərin, ürəkdən bir nəfəs almaq üçün ildə bir neçə dəfə bu diyara üz tuturlar.*





***Aleksandr Jukov*** ilk dəfədir ki, Rusiya Federasiyasından yurdumuza qonaq gəlir. Onun söylədiklərindən:

– İllər öncə tutulduğum bronxial-astma xəstəliyindən uzun müddət müalicə alsam da, səhhətimdə heç bir müsbət nəticə əldə olunmadı. İllər keçdikcə isə vəziyyətim daha da ağırlaşdı və bir ümidlə Naxçıvana üz tutdum. Duzdağ Fizioterapiya Mərkəzinə ilk ayaq basdığım andan ciyərlərimdə açılma, nəfəsimdə rahatlıq hiss etdim. Bu mənim sevincimə səbəb oldu. İlk dəfədir ki, müalicə üçün buraya gəlməyimə baxmayaraq, buradakı tibb işçilərinin səmimi münasibəti özümü evimdəki kimi hiss etməyimə səbəb oldu. Naxçıvanın bir çox görməli yerlərini də gəzmək fürsətim olub. Qədim torpağın hansı səmtinə yolumuz düşübsə, orada tarixi-mədəni abidələrlə, füsunkar təbiət mənzərələri ilə qarşılaşmışam.

Tümen vilayətindən gələn ***Teymur Davudov***un cəmi 13 yaşı olsa da, burada tək qalıb gecələməkdən çox xoşu gəlib. Müsahibim deyir: – Mağaralara daxil olanda ciyərlərimə çəkdiyimiz təmiz hava bizə xoş ovqat bağışlayır. Bir sözlə, buranın havası sakitləşdirir insanı. Artıq bir neçə gündür ki, buradayam və özümü çox yaxşı hiss edirəm. Növbəti illərdə də gəlməyi düşünürəm. İnsanların səmimiliyi buranın necə gözəl bir yer olduğunu sübut edir.

Dörd və səkkizyaşlı övladlarını şəfa tapması ümidi ilə Bakı şəhərindən buraya gətirən ***Nailə Quliyeva*** də onlardan biridir. O, bir ana kimi çox sevinclidir və deyir: – Yurdumuzun havası övladlarıma yeni həyat bəxş edir. Hər il gəlirik bu mərkəzə və hər dəfəsində müsbət nəticə əldə edirik. Burada Naxçıvandan olmayan bir çox insanla tanış oldum. Hər kəs yurdumun insanlarının, təbiətinin gözəlliyindən, möcüzələrindən danışır. Və bu məni çox sevindirir. Ölkəmizdə bu cür mərkəzlərin açılmasında xidmət göstərən insanlara təşəkkür edirəm, qurub-yaradan əllərə alqış – deyirəm.

Mərkəzi gəzərkən Qazaxıstan Respublikasından gələn qonaqlarla da söhbət etmək imkanımız oldu. ***Zəhra Rzayeva*** iki oğlan nəvəsi – Orxan və Muxtarla cənnətməkan yurdumuza gəlib. Muxtar dedi ki, Naxçıvana ilk gəlişidir. Nuhun yurdunun bu gözəlliyi onu valeh etdi və sevindirdi. Azərbaycana gələrkən yolboyu gördüyü hər kənd, rayon mərkəzi bir-birindən səliqəli və yaraşıqlıdır. Burada əsas diqqətini çəkən isə insanların hər işdə öz səylərini göstərmələridir. Gəlişi həftəsonuna təsadüf etdiyi üçün yol kənarında ağaclara qulluq edən insanları görür. Öyrənir ki, onlar dövlət idarələrinin əməkdaşlarıdır və istirahət günlərində yol kənarlarındakı yaşıllıqlara qulluq edirlər. Bunun özü bir vətəndaşın dövlətinin, övladının gələcəyi üçün qoyduğu ən böyük sərmayədir. Bundan böyük Vətən sevgisi ola bilməz.





Duzdağ mağaraları haqqında fikirlərini bildirən Zəhra xanım dedi: – Burada insan dərindən nəfəs ala bilir. Sanki oksigen balonuna bağlanmış kimi hiss edir özünü. Tanrının yaratdığı bu gözəl məkana insan əli də öz sığalını çəkib. Buranı gəzməyə gəlmişdim, amma o qədər yaxşı oldu ki, mənim üçün. Bir neçə gecə bu mərkəzdə qalmağı düşünürəm. Naxçıvan şəhərini gəzdikcə, onun təmiz, səliqəli küçə və prospektlərini seyr etdikcə düşünürəm ki, burada Vətəninin hər qarışını sevən gözəl insanlar yaşayır. Keçmişi zənginliklərlə dolu olan xalqımızın ürəyi tarixindən də zəngindir. Təbiətin gözəlliklərini tamamlayan da elə insanın özüdür. Dünyanın bir çox ölkələrində turistlər o qədər də rahat gəzib-dolaşa bilmirlər. Burada elə əmin-amanlıqdır ki, insan gecəyarısı belə küçəyə rahatca çıxır, dolaşır.

Duzdağ isə, bu, bir Tanrı möcüzəsidir. Duz mağaralarının içərisində belə bir şəfa ocağının yaradılması dövlət qayğısından xəbər verir. Tanrı öz möcüzələrini bu torpaqdan əsirgəməməklə yanaşı, buranın insanlarının qoluna güc, ürəyinə təpər də verib ki, belə bir yüksək səviyyəli şəfa ocağı yaratsınlar. Buranı muzeyə də bənzədirəm. Tunellərlə içəriyə doğru getdikcə insan yaşadığı aləmdən bir anlıq ayrılır, sehrli bir dünyada gəzintiyə başlayır. Burada cənnət havası var sanki. Qədim diyarın təbiəti insanı xəyallar aləminə qərq edir, füsunkar gözəlliklərə heyran qalmaya bilmirsən.

Sağlamlığın bir nəfəs qədər yaxın olduğu bu mərkəzdə keçirdiyim bir neçə saatdan sonra şəhərə qayıtmaq vaxtı çatanda sanki iki fəslin astanasında qaldım. İçəridə yayı-qışı dəyişməyən, yazı xatırladan 18 dərəcə temperatur, bayırda isə 40 dərəcəni keçən yay havası. Bu necə möcüzədir, İlahi? – deyə düşünürəm. Bu diyar necə bir möcüzəni öz qoynunda yaşadır. Əfsanələrdə deyilir ki, Naxçıvan Nuhun gəmisinin dayandığı məkan, insanlığın yaradılışının başlandığı yerdir. İnsana nəfəs ilk dəfə burada verilib. Bəlkə də, elə ilk nəfəsi Duzdağda Tanrı insana bəxş edib. Elə ona görədir ki, məhz nəfəsalma ilə bağlı xəstəliklərimiz burada sağalır.

✍ **Ramiyyə ƏKBƏROVA**

*Müasir həyatımızda Azərbaycan qadınının fəallığının hər yerdə özünü göstərməsinin təməli də məhz dahi rəhbərin müəyyənləşdirdiyi dövlət qadın siyasətinin uğurlu bəhrəsidir. Demək olar ki, respublikanın bütün sahələrində qadınlarımız təmsil olunurlar. Elə bir sahə yoxdur ki, orada Azərbaycan qadınının səsi eşidilməsin, onun fəaliyyəti şaxələnməsin. Qürur duyuruq ki, bu gün qadınlarımızın səsi dünyanın hər yerindən eşidilir. Dünya dövlətlərinin yüksək tribunalarından qadınlarımızın çıxışları və onların qaldırdığı məsələlər bu fikri təsdiqləyir ki, Ümummilli Liderin təməlini qoyduğu yol bu gün də davam etdirilməkdədir.*

# Qadınlarımızın peşə təhsilinə yönləndirilməsi dövlət tərəfindən atılmış zəruri addımlardan biridir



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi bu istiqamətdə xeyli iş görür. Bu orqan vasitəsilə qadınlarımız üçün hərtərəfli şərait yaradılır. Bu sırada təhsildən kənar qalmış qadınlarımıza göstərilən dövlət qayğısı xüsusi qeyd olunmalıdır. Dövrümüzün aktual məsələlərindən biri olan bu problemin həlli barədə daha dolğun məlumat almaq üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə üz tutduq. Komitənin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin müdiri ***Könül Babayeva*** bildirdi ki, bu gün hələ də təhsildən kənar qalmış xanımlarımız ölkəmizdə kifayət qədərdir. Ona görə də dövlətimiz tərəfindən bu problemi həll etmək üçün bir sıra tədbirlər görülür. Belə ki, komitənin vasitəçiliyi ilə rayonlarımızda təhsildən kənar qalmış xanımlarımızla tanış olub onları yenidən cəmiyyətə qazandırmaq imkanı yaradılır. Statistik məlumatlara nəzər salsaq görərik ki, 2022-ci il ərzində Naxçıvan Muxtar Respublikasında tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Belə ki, şəhər və rayon icra hakimiyyətlərindən həmin qadınlar haqqında məlumatlar almış, komitədə yaradılmış bazaya əlavə edilmiş, təhlil aparılmışdır. Naxçıvan şəhəri, Şərur, Babək Ordubad və Kəngərli rayonları üzrə qadınlarla əlaqə saxlanılmış, onlardan 20-si bərbər-manikürçü, 17-si dərzi, 16-sı kompüter istifadəçisi, 6-sı aşpaz, 4-ü xalçaçı, 3-ü dayə peşəsi olmaqla, ümumilikdə, 66 nəfərin peşə təhsilinə yiyələnməsi üçün məlumatları Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir. 2023-cü ilin I rübü ərzində Naxçıvan Muxtar Respublikasında tək qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi davam etdirilmiş, Naxçıvan şəhəri, Babək, Culfa, Şahbuz və Kəngərli rayonları üzrə qadınların 15-i dərzi, 9-u kompüter istifadəçisi, 8-i bərbər-manikürçü, 5-i aşpaz, 2-si dayə, 1-i toxucu olmaqla peşə təhsilinə yiyələnməsi üçün 40 qadın haqqında məlumatlar həmin nazirliklərə göndərilmişdir. Qeyd edək ki, komitə tərəfindən ailəsinə dəstək olmaq istəyən xanımlarımız peşə öyrənməklə yanaşı, həm də gəlir əldə etmək üçün iş sahibinə çevrilirlər.





Belə qadınlardan bir neçəsi ilə həmsöhbət olduq. Onlar göstərilən bu qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildirdilər. Ailə başçısı olan ***Lalə Bayramova*** dedi ki, 3 övladı var və hazırda iki övladı təhsil alır. Komitə tərəfindən ailəsi ilə maraqlanmaları onu çox sevindirib. Ona ətraflı məlumat verildikdən sonra düşünüb ki, uşaqlıqdan olan dərzilik xəyalı daha əlçatmaz deyildir. Sonra isə bacarıq və qabiliyyətinə görə onu tikiş maşını ilə mükafatlandırıblar. Dövlətimizin bu qayğısının nəticəsidir ki, Lalə xanım bir ildən artıqdır, dərzi kimi fəaliyyət göstərir, həmçinin əl işləri sərgilərdə nümayiş etdirilir. Belə xanım dərzilərimizdən biri isə ***Təhminə Əliyeva***dır. Təhminə xanım bu peşəyə kiçik yaşlarından marağı olduğundan, lakin müəyyən səbəblərdən arzusunun baş tutmadığından bəhs etdi. Dövlətimizin dəstəyi ilə artıq dərzi kimi fəaliyyət göstərdiyindən danışan müsahibimin kiçik emalatxanası da vardır.

*Qadınlarımızın məşğulluq probleminin, xüsusilə də tək və ailə başçısı olan zərif cinsin nümayəndələrinin belə qayğı ilə əhatə olunması müasir cəmiyyətin inkişafına əvəzsiz töhfələr verməsinə şərait yaradıb.*

✍ **Sürəyya QƏDİMƏLİYEVA**

## Əyləncəli idman oyunlarının qalibi məlum olub



Məktəblilərin yay tətili günlərində asudə vaxtlarının səmərəli təşkili məqsədilə 27-28 iyul tarixlərdə Naxçıvan Muxtar Respublikası Təhsil, Gənclər və İdman nazirliklərinin, Atletika Federasiyasının birgə təşkilatçılığı ilə Naxçıvan şəhər məktəblərinin şagirdləri arasında əyləncəli idman oyunlarının Naxçıvan şəhər birinciliyi keçirilib.

İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən birincilikdə Heydər Əliyev adına tam orta məktəbdən, Naxçıvan şəhər 5,10,16,17,12 nömrəli tam orta məktəblərdən və Qarnizon tam orta məktəbindən, ümumilikdə, 7 komanda iştirak edib. Əyləncəli idman oyunları “TOPS-1”, “MEQA” və “Cəngavərlər döyüşü” mərhələlərindən ibarət olub.

İki gün davam edən birinciliyin sonunda Qarnizon tam orta məktəbinin komandası qalib adını qazanıb. Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin komandası ikinci, Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Sonda qaliblərə təşkilatçıların diplomları təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsində istifadə olunan 72 ədəd (547179-547250) “Azərbaycan Respublikasına gətirilən nəqliyyat vasitəsi üçün vəsiqə” və 141 ədəd (15409-15450, 16802-16900)“Gömrük arayışı 5”adlı ciddi hesabat blankları itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 445